**Əlavə 1.21**

**Elmlər doktoru və fəlsəfə doktoru dissertasiyalarının müdafiəsinin təşkil edilməsi üçün Ali Attestasiya Komissiyasına təqdim edilən sənədlərin**

**SİYAHISI**

1.Dissertasiya işinin yerinə yetirildiyi təşkilatın blankında yazılan və onun rəhbəri tərəfindən imzalanan qoşma məktub;

2.İş yerində təsdiq edilmiş, üzərində fotoşəkil olan kadrların şəxsi uçot vərəqi -1 nüsxə;

3.İddiaçının iş yerindən verilmiş, təşkilatın rəhbəri tərəfindən imzalanmış, tarix qoyulub, gerbli möhürlə təsdiq olunmuş xasiyyətnamə -1 nüsxə;

4.Fəlsəfə doktoru elmi dərəcəsi iddiaçıları üçün ali təhsil haqqında diplomun (xaricdə, o cümlədən, MDB ölkələrində təhsil almış şəxslər üçün əlavə olaraq, Azərbaycan Respublikası Təhsil Nazirliyindən verilmiş ekvivalentlik haqqında şəhadətnamənin) təsdiq edilmiş surəti -1 nüsxə;

Elmlər doktoru elmi dərəcəsi iddiaçıları üçün fəlsəfə doktoru diplomunun, (elmi dərəcəsini xaricdə, o cümlədən, MDB ölkələrində almış şəxslər üçün əlavə olaraq, Komissiya tərəfindən verilmiş ekvivalentlik haqqında sənədin-diplomun) təsdiq edilmiş surəti -1 nüsxə;

5.Dissertasiya mövzusunun təsdiq olunması haqqında protokoldan çıxarış;

6.Fəlsəfə doktoru elmi dərəcəsi almaq üçün doktorluq imtahanlarının verilməsi haqqında vəsiqə;

Fəlsəfə doktoru və elmlər doktoru (fəlsəfə doktoru dissertasiyasının müdafiə olunduğu elm sahəsi ilə eyni olmadıqda) elmi dərəcəsi iddiaçısının dissertasiyanın profili üzrə ali təhsili olmadıqda həmin elm sahəsinin ümumelmi əsaslarından əlavə doktorluq imtahanının verilməsi haqqında vəsiqə-1 nüsxə;

Pedaqogika üzrə fəlsəfə doktoru elmi dərəcəsi iddiaçısının pedaqoji stajı haqqında arayış-1 nüsxə;

7.Dissertasiya işinin yerinə yetirildiyi və ya iddiaçının təhkim olunduğu təşkilatın rəyi və rəyin qəbul edildiyi iclasın protokolu -1 nüsxə;

Təşkilatın rəyi kafedra (laboratoriya, bölmə, şöbə) iclasının və ya seminarın protokolundan çıxarış şəklində tərtib edilir, təşkilatın rəhbəri tərəfindən təsdiq olunur və ona təşkilatın gerbli möhürü vurulur.

Protokol iclasın sədri və katibi tərəfindən imzalanır, onların imzası təşkilatın elmi katibi tərəfindən müvafiq qaydada təsdiq olunur.

8.Elmi rəhbərin (məsləhətçinin) rəyi;

9. Dissertasiya mövzusuna dair dərc olunmuş elmi işlərin siyahısı (Əlavə 1.18) - 1 nüsxə;

10.Dissertasiya mövzusu üzrə dərc olunmuş elmi əsərlərin surətləri (monoqrafiya özü əlavə olunur);

11. Fəlsəfə doktoru elmi dərəcəsi iddiaçıları üçün fəlsəfə doktoru

dissertasiya işinin cildlənmiş nüsxəsi və avtoreferatın əlyazması -1 nüsxə;

Elmlər doktoru elmi dərəcəsi iddiaçıları üçün elmlər doktoru və fəlsəfə doktoru dissertasiya işlərinin cildlənmiş nüsxələri, fəlsəfə doktoru dissertasiyasının avtoreferatı və elmlər doktoru dissertasiyasının avtoreferatının əlyazması – hər birindən 1 nüsxə;

12.Şəxsiyyət vəsiqəsinin surəti.